# Biologiya üzrə VI siniflərdə təlim ekskursiyalarının təşkili və aparılması problemi

**Əsmər Əskərova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** eskerovaesmer96@gmail.com

**Rəyçilər:** ped.ü.f.d., dos. Ə.M. Məhərrəmov,
ped.ü.f.d., dos. H.M. Hacıyeva

**Açar sözlər:** müşahidə, müqayisə, praktik işlər, ekskursiya
**Ключевые слова:** наблюдение, сравнение, практическая работа, экскурсия
**Key word:** observation, comparison, practical issues, excursion

Təlimin səmərəsi onun təşkil formasından çox asılıdır. Təlimin düzgün formada təşkili şagirdlərin sosial, yaradıcı, emosional, fiziki inkişafına çox böyük təsir göstərir. Buna görə də təlimin əsas forması olan dərs həyatla əlaqəli şəkildə tədris olunmalıdır. Dərsin həyatla əlaqəsi dedikdə nəyi nəzərdə tuturuq? Dərsin həyatla əlaqəsi, təcrübənin göstərdiyi kimi, müxtəlif forma və yollarla həyata keçirilir. Təlimdə dərslərlə yanaşı təlimin digər formalarından da geniş istifadə edilir. Bu formalara praktikumları, seminar məşğələləri, əlavə məşğələləri, təlim ekskursiyalarını, təlimin sinifdənxaric formalarını aid edə bilərik. Bu formalar şərti olaraq köməkçi formalar da adlandırılır. Lakin bu formalar təlimin əsas forması ilə qarşılıqlı əlaqəli tətbiq olunmalıdır. Tədrisdə çox zaman dərsin ekskursiya formasından da istifadə edilir. Tədrisdə xüsusilə də biologiya dərslərinin təşkilində təlim ekskursiyaları əhəmiyyətli yer tutur. Şagirdlər ekskursiyalarda topladıqları məlumatlardan praktik işlər zamanı geniş istifadə edə bilirlər. Buna görə də təlim ekskursiyaları məktəbdə keçirilən dərslərlə sıx əlaqəli olmalıdır. Ekskursiyalar orta məktəblərdə VI – XI siniflər arasında tətbiq oluna bilər.

— Bitkilərlə olan ekskursiyalar əsasən ətraf aləmdəki təbiətlə əlaqədar olur. Buraya xəzan prosesini, qışda bitkilərin həyatını, yazda bitkilərdə baş verən prosesləri misal göstərmək olar.

— Heyvanlarla əlaqədar olan ekskursiyalar əsasən zooparklarda, dəniz və çay kənarı ərazilərdə aparılır. Buraya kənd mühitində yaşayan heyvanların, suda yaşayan heyvanların, meşədə yaşayan heyvanların və həmçinin müxtəlif fəsillərdə heyvanların dəyişən həyat tərzini misal göstərmək olar.

— Yuxarı siniflərdə aparılan ekskursiyaların məqsədi daha fərqli olur. Bu zaman şagirdlər təbiətdəki ekosistem və aqrosistemlərlə tanış olur. Təbii biosenozlara insan təsirini müşahidə edirlər. Həmçinin bitki sortlarının və heyvan cinslərinin müxtəlifliyini müqayisə edirlər.

VI sinif biologiya dərsliyinin təhlilinə əsasən deyə bilərik ki, burada bir çox mövzular üçün təlim ekskursiyaları təşkil edilə bilər. Mövzulara əsasən ekskursiyaları muzey, park, çöl, çəmən, meşə kimi ərazilərdə tətbiq oluna bilər. VI sinif dərsliyindəki “Vətənimizin təbiəti”, “Heyvanların qidalanması”, “Bitkilərdə suyun buxarlanması. Xəzan”, “Azərbaycan qoruqları”, “Mədəni bitkilərin insan həyatında əhəmiyyəti”, “Heyvanların əhliləşdirilməsi və insan həyatında rolu” – mövzular üçün təlim ekskursiyaları təşkil oluna bilər. “Heyvanların qidalanması” mövzusunun tədrisi üçün Bakı şəhər Zooloji Park-na təlim ekskursiyaları təşkil edilə bilər. Burada şagirdlərə müxtəlif növ heyvanları görmək və onlarla təmasda olmaq imkanı yaradılır. Şagirdlər burada ağ leylək, zebu, lama, ikihürgüclü dəvə, dəvəquşu və s.

heyvanların həyat tərzini, qidalanmasını, müşahidə edə bilərlər. "Mədəni bitkilərin insan həyatındakı əhəmiyyəti" mövzusu üçün Azərbaycan Elmi tədqiqat Əkinçilik İnstitutun-a ekskursiya təşkil oluna bilər. Burada şagirdlər taxıl bitkilərindən - arpa, buğda, çovdar, qarğıdalı, çəltik, paxlalı bitkilərdən noxud, mərci bitkilərinin yeni məhsuldar və keyfiyyətli sort və hibridlərini müşahidə edə bilərlər. "Dərman bitkiləri" mövzusunun tədrisi üçün AMEA Dendrologiya İnstitutu-a təlim ekskursiyası təşkil oluna bilər. Burada şagirdlər müxtəlif dərman bitkilərini yaxından görüb müşahidə edə bilərlər. Şagirdlər avropa zeytunu, dəfnə, italiya şamı, neştə yarpaq sumaq, müxtəlif subtropik bitkiləri müşahidə edə bilərlər. "Bitkilərin suyu buxarlandırması. Xəzan" mövzusu üçün şagirdləri AMEA Mərkəzi Nəbatat Bağına ekskursiyaya aparmaq olar. Burada şagirdlər payız fəslində müxtəlif bitkilərdə baş verən xəzan prosesini yaxından müşahidə edə bilərlər. Bu mərkəzdə həmçinin şagirdlər endemik, nadir, nəsli kəsilməkdə olan bitki növləri haqqında məlumat ala bilərlər. Müxtəlif ərazilərdə təşkil olunan ekskursiya formaları şagirdlərdə məntiqi və tənqidi təfəkkürün formalaşmasında mühüm rol oynayır. Şagirdlərin tədqiqat qabiliyyətinin inkişafına təsir edir. Onlar dərsdə aldıqları nəzəri bilikləri ekskursiyada praktiki dəqiqləşdirir və ümumiləşdirirlər. Bu cəhətdən ekskursiyalar öyrədici və tərbiyəedici xarakter daşıyır. Ekskursiyanın hər mərhələsinin vəzifəsindən asılı olaraq müəllim şagirdləri fərdi, qrup və kollektiv tapşırıqlar üzərində işlədir. Təlim ekskursiyalarının təşkilində müəllim müxtəlif müasir təlim metodlarından (suallar, beyin həmləsi, əqli hücum, müşahidə, müzakirə, məlumatvermə) istifadə etməklə şagirdlərin dərsə marağını artıra bilər.

Daşıdığı məqsəddən asılı olaraq təlim ekskursiyalarının 3 əsas tipi mövcuddur.

1. İlk tanışlıq və ya giriş ekskursiyaları (mövzudan qabaq keçirilir və mövzuya maraq oyatmaq xarakteri daşıyır). Bu ekskursiya tipini "Vətənimizin təbiəti", "Biologiya canlı orqanizmləri öyrənən elmdir", "Canlı orqanizmlərin məskunlaşması və yayılması" mövzularına tətbiq etmək olar.
2. Cari və ya müşayiətedici ekskursiyalar (mövzu öyrənilən zaman həyata keçirilir və nəzəri bilikləri möhkəmlətmək məqsədi daşıyır). Bu ekskursiya tipini "Çiçəkli bitkilərin əsas orqanları", " Çiçək qrupları", "Azərbaycan qoruqları", mövzularına tətbiq edə bilərik.
3. Yekun ekskursiyaları (mövzu öyrənildikdən sonra tətbiq olunur, mövzunu yekunlaşdırmaq, öyrənilənləri sistemləşdirmək, tətbiq etmək, yoxlamaq məqsədi daşıyır). Bu ekskursiya tipini "İnsan və canlı təbiət", "Canlıların təsnifatı", "Bitki orqanlarının şəkildəyişmələri" mövzularına tətbiq etmək mümkündür.

Hazırda müasir dərslərin tədrisində təlim ekskursiyalarına geniş yer verilməlidir. Çünki tədrislə həyat arasındakı əlaqənin yaradılmasında ekskursiyalar xüsusi əhəmiyyət kəsb edir. Lakin müəllimlər təlimin bu formasından lazımi qədər istifadə etmirlər. Vaxt məhdudluğu səbəbindən müəllimlər çox zaman ümumiləşdirici ekskursiyalar təşkil edirlər. Ekskursiyaların təşkilinin əsas şərtlərindən biri də şagirdlərin təhlükəsizliyini və sağlamlığını müdafiə etməkdir. Ekskursiyaların təşkili şagirdlərdə biologiya fənninə marağı artırır. Onlarda əməkdaşlıq, öz fikrini əsaslandırma, müstəqil qərar qəbul etmə, müşahidə aparmaq bacarıqlarının formalaşmasında mühüm rol oynayır.

VI sinifdə *"Bitkilərdə suyun buxarlanması. Xəzan"* mövzusunda ekskursiyanın təşkili.

Hazırlıq mərhələsi. Bu zaman şagirdlər dərslikdən "Bitkilərdə suyun buxarlanması. Xəzan" mövzusunda nəzəri bilikləri təkrar edir, müəllim obyektlə tanış olub, ekskursiya planını hazırlayır və marşrutu müəyyənləşdirir. Ekskursiyanın AMEA-nın Mərkəzi Nəbatat Bağına təşkil olunacağı planlaşdırılır. Bu haqda şagirdlərə məlumat verilir. Müəllim həmçinin şagirdlərə ekskursiyada öyrəniləcək obyektlər haqqında da məlumat verməlidir.

Ekskursiyanın keçiriləcəyi vaxt müəyyənləşdirilir. Yaxşı olar ki, müəllim əvvəlcədən ekskursiya obyektinə baş çəksin.

Ekskursiyanın keçirilməsi. Şagirdlər bu mərhələdə ekskursiya obyektində müşahidə aparırlar. Onlar xəzanın səbəbini, ona müxtəlif bitkilərin verdiyi fərqli reaksiyaları müqayisəli müşahidə edirlər. Həmçinin öz qeydlərini aparırlar. Şagirdlər bu mərkəzdə müxtəlif bitkilərdə - qovaq, ağcaqayın, palıd, dəmirağac, meşə gilası, püstə və s. xəzan prosesini yaxından görə bilərlər.

Yekun mərhələ. Ekskursiyanın bu mərhələsi müxtəlif formalarda aparıla bilər. Belə ki, şagirdlər xəzan nəticəsində ağac və kollardan tökülən müxtəlif rəngli yarpaqlardan herbari və kolleksiyalar hazırlaya bilərlər. Həmçinin müşahidə etdikləri obyekt və proseslər haqqında esse yaza bilərlər. Dərslərin bu formada təşkili şagirdlərin müasir tələblərə cavab verən şəxsiyyət kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Onlarda nəzəri bilikləri praktikada tətbiq etmək bacarığı formalaşdırır.

**Məqalənin aktuallığı.** Müasir təlimdə əsas məqsəd elmi bilikli, intellektual səviyyəsi yüksək olan şəxsiyyəti formalaşdırmaqdır. Bu cəhətdən müəllimlər təbiət fənlərində təlim ekskursiyalarının rolunu dərk etməli və həmçinin onun əhəmiyyətini şagirdlərə izah etməlidir. Çünki təlimin bu forması şagirdlərdə məntiqi və tənqidi təfəkkürü inkişaf etmiş şəxsiyyətin formalaşmasında mühüm rol oynayır.

**Məqalənin elmi yeniliyi.** "Biologiya üzrə VI siniflərdə təlim ekskursiyalarının aparılması problemi" mövzusu ilk dəfə işlənmişdir. Mövzu ilə əlaqədar təlim ekskursiyalarının keçiriləcəyi ərazilər və mövzular araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalənin doktorant və dissertantlar, magistrantlar, biologiyanın tədrisi metodikası üzrə tədqiqat aparan şəxslər, xüsusilə də müəllimlər üçün faydalı olacağı düşünülür. Düşünürəm ki, onlar təlimin digər təşkil formalarına, xüsusilə də təlim ekskursiyalarının tədris imkanlarına başqa prizmadan yanaşmağa cəhd edəcəklər, onun mahiyyətini anladıqdan sonra isə bu prosesi həyata keçirməyə daha ciddi yanaşacaqlar.

## Ədəbiyyat

1. Hacıyeva H., Abdullayeva T., Hacıbəyova E. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədris metodikası. Bakı, 2014.
2. Hüseynov Ə., AbdullayevaT. Biologiyanın tədrisində müasir metodologiya, Bakı, 2012.
3. Hacıyeva G., Biologiyanın tədrisi metodikası. Bakı, 2018.
4. Seyidli Y., Əhmədbəyli X., Əliyeva N. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı, 2013.

**А. Аскерова**

## Задача по обучению и организации учебных экскурсий но биологии для студентов 6-го класса

## Резюме

Статья посвящена обучению и организации обучающих экскурсий для студентов 6-й формы биологии в общеобразовательных школах. В статье рассматривается важность

учебных экскурсий, исследуемых экскурсионных направлений, материалов, сделанных экскурсиями для студентов.

**A. Askarova**

## Problem on educating and organizing of training excursions on biology for the 6th form students


### Summary

The article is devoted to educating and organizing of training excursions for the 6th form biology students at general education schools. The importance of training excursions, researched excursion destinations, materials made by excursions for the 6th form students are taken into consideration on the article.


**Redaksiyaya daxil olub:** 06.11.2018